# Azərbaycanın qədim kitab tarixindən

Hər bir xalqın özünəməxsus tarixi vardır. Azərbaycan xalqının tarixi, milli qaynaqları zəngin, ulu keçmişin nümunələrindən biridir. Mədəni, qədim, zəngin irsə malik Azərbaycan xalqı kitab mədəniyyətinə xüsusi önəm vermişdir. Ümumiyyətlə, kitab mədəni, mənəvi irsin, xalqın milli sərvətinin qiymətli bir hissəsi, ideoloji mübarizənin qüdrətli və qüvvətli vasitəsidir. Kitablar yaşadığımız keçmişin, bu günün canlı şahidləri, mədəni-irsi, xəzinəmizin ən qiymətli bölümüdür. Azərbaycan xalqının maddi və mənəvi abidələri olan qədim kitablar haqqında geniş mövzuda danışmaq olar. Qədim əlyazmalar tariximizin böyük bir hissəsini təşkil edir. Londonda, Parisdə, Vatikanda, Drezdendə, Nyu-Yorkda, İstanbulda və s. digər dünya kitabxanalarında xəzinələrimiz – qədim kitablarımız mühafizə edilir.

Azərbaycan xalqının qədim tarixi xəzinəsinin bir hissəsi olan kitablar orta əsrlərdə geniş halda yayılmağa başladı. Xalqımıza məxsus əlyazma kitablarının ən zəngin bölümü Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitunda qorunub saxlanılır. Burada əldə edilən qədim əlyazmalar, çap kitabları mühafizə və tədqiq edilir. Tibbi, dini, elmi, tarixi, hüquqi sahədə də belə kitablarımız milli xəzinəmizi təşkil edir. Xalqımızın zəkasının ən qiymətli inciləri olan kitablar, milli-mənəvi iftixar yerimiz, böyük maraq dünyamızdır. Orta əsrlərdə kitabların sayını artırmaq məqsədilə xəttatlar və katiblər onların surətini bir neçə dəfə köçürürdülər. Bundan sonra işi asanlaşdırmaq üçün əlyazmalar Daşbasma (daşçapı) üsulu ilə çap olundu. Daşbasma üsulunda hazırlanan kitablar çox gözəl nəfis tərtibata malik idi. Daşbasma kitablarının səhifələri üzərindəki nəbati və həndəsi ornamentlər daşbasması üsulu ilə hazırlanırdı.

Qədim tarixə malik olan Qəbələ diyarında da məşhur yazarlarımız olmuşdur. Həmyerlilərimiz Abdulla Qutqaşınlı, Mustafa Məhəmməd oğlu Bumi, Molla Gülü Zalami və s. kimi yazarlar da milli xəzinəmizə, bədii irsimizə böyük töhfələr vermişlər. Hal-hazırda bu ədiblərin əməyinin bəhrəsi olan əlyazmalar respublika Əlyazmalar İnstituda qorunub saxlanılır. Əsərlərinin bir neçəsinin foto-surəti Qəbələ rayon Tarix-Diyarşünaslıq muzeyinin fondunda və ekspozisiyasında mühafizə və təbliğ edilir. Bu yaxınlarda muzeyimizn fonduna 39 ədəd qədim kitablar daxil olmuşdur. Muzeyin direktoru,Əməkdar Mədəniyyət Işçisi Xalis Məmmədov şəxsən əldə etdiyi kitabları muzeyə bağışlamış və XIX əsrin inciləri olan bu nümunələri daimi sərgidə sərgilənməsini təşkil etmişdir. Xatırladaq ki, bu kitabların oxunması və tədqiqi sahəsində mühüm işlər görülmüşdür. XIX əsrin nümunəsi olan bu kitabların içində 14 ədəd "Quran" əlyazma və çap kitab halında fondumuzda əsas yer tutur. Şeyx Sədi Şirazinin "Külliyyatı", "Bustan", "Gülüstan" əsərləri də bu kitablar arasında özünəməxsus yer tutur. Şeyx Sədi Şirazinin "Külliyyatı" daşbasma üsulu ilə 1848-ci ildə Tehranda cap olunmuşdur. Onu da xatırladaq ki, bu əsərləri açıq-aydın oxumaq mümkündür. Nəfis tərtibata məxsus olan bu kitablar tamaşaçıların marağına səbəb olur. Bu kitablar arasında XIX əsrin sonu XX əsrin əvvəlinə aid çap üsulu ilə hazırlanan "Hesab" kitabı həmin dövrün dərsliyi, vəsaiti, bu günümüz üçün qiymətli, zəngin muzey sərvətidir. Bütün bu 39 ədəd kitab bu günümüzün qiymətli əsərləri kimi ekspozisiyamızı daha da zənginləşdirdi. Hər kitabın özünəməxsusluğu, hər bir əsərin qədimiliyi xalqımızın varlığını, elmə, təhsilə bağlılığını təsdiq edir.

Mən hamının diqqətini çəkən ekspozisiyaya daxil olan iki ədəd kitab haqqında xüsusi olaraq danışamaq istəyirəm. Elə bu iki ədəd kitab onu göstərir ki, Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyası doğrudan da zəngin, qədim və maraqlıdır. 1911-ci ildə Bakıda Orucov qardaşları mətbəəsində çap olunan, həmyerlimiz Əfəndizadə Hacı Əhməd Əfəndinin "İrşadi islam" əsəri həqiqətən də zəngin bir aləm yaradır. Naşiri Molla Səid Əfəndiyevdir. 24 səhifədən ibarət olan bu kitab hal-hazırda dünyada iki ədəddir. Bir nüsxə bizim ekspozisiyamızda, digəri isə Rusiya Federasiyasının Peterburqdakı M. Y. Saltıkov-Şedrin adına Rusiya Dövlət Kitabxanasında qorunub saxlanılır. Digər kitab isə Mirzə Abdulxalıq Axundovun "Müalicə kitabı"dır. Bakıda1914-cü ildə "Kaspi" nəşriyyatında ərsəyə gələn bu məcmuə Azərbaycanda 1780-1920-ci illərdə nəşr edilmiş kitabları özündə əks etdirən "Azərbaycan kitabı" (Bakı. 1963) məlumat-biblioqrafiya nəşrinə düşmədiyindən çox nadir nüsxə sayılır. Bu kitablara nəzər yetirən seyrçilər muzeyimizin zəngin ekspozisiyaya malik olduğunu qeyd edirlər. Yeni sərgilənən bu ktablar çoxlu tamaşaçı marağına səbəb olmuşdur. Tariximizin bir hissəsi olan bu kitablar bu gün qorunur ki, gələcək nəsillərə ərmağan edilsin. Hamılıqla ekspozisiyamıza, xüsusilə də bu kitablara maraq yetirmək üçün sizləri Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinə dəvət edirik. Tariximizi bilmək, yaşatmaq hamımızın vətəndaş və vəzifə borcumuzdur. Elə bu kitablar da tariximizin mühüm bir hissəsi, mən deyərdim ki, qızıl dövrüdür. Çünki həmin dövrdə kitab nəşri elmə, inkişafa doğru gedən yolu göstərir. Tariximizin bütün sirrləri kitablarda əks olunur, qorunur, yaşanır və gələcəyə ötürülür.

**İlhamə SEYİDOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyinin kiçik elmi işçisi.**

# Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadası Qəbələdə



Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin göz xəstəlikləri üzrə həkimləri vaxtaşırı olaraq yerlərdə xəstələrə pulsuz xidmət göstərməyi öhdələrinə götürmüşlər. Həkim briqadası yaxın günlərdə Qəbələ rayon mərkəzi xəstəxanasında olmuşdur. Onlar 150-dən çox gözdən şikayəti olan Qəbələ sakinini müayinə etmiş, 30-a qədər xəstə üzərində əməliyyat apararaq müalicə etmişlər.

Xəstələr onlara verilən tibbi məsləhətlərə və aparılan əməliyyatlara görə mərkəzin həkimləri rezident-oftalmoloq Cavid Allahverdiyevə, oftalmoloq-cərrah Mübariz Qəhrəmanova, həkimlərdən Polad Məhərrəmova, Emil Hüseynova təşəkkürlər etmişlər.

Həkimlərsə yaradılan yüksək şəraitə görə rayon mərkəzi xəstəxanasının rəhbərliyindən razı qaldıqlarını bildirmişlər.

**Foto və mətn**
**Səhrab Umuyevindir.**

# Təbii gübrə daha faydalıdır

## Onu kəndli öz təsərrüfatında da hazırlaya bilər

Son zamanlar bir sıra qida məhsullarının keyfiyyətinin pisləşməsi, dadının-tamının itməsi, hətta bəzən zəhərlənmə hallarına səbəb olması hamını narahat edir. Ümumiyyətlə, qida məhsullarının ətri, dadı-tamı keçmişdəki kimi deyil.

Mütəxəssis kimi biz torpaqlarımızın üzvi maddələrlə zəngin, məhsullarımızın tamlı olması üçün fərdi təsərrüfatçılara, əsasən də fermerlərə kompost hazırlanması yolları tövsiyə edirik. Bəs, aidiyyəti təşkilatlar bu qədər aktual məsələyə necə reaksiya verirlər?

Bir daha deyim ki, məqsəd torpaqlarımızı zəngin strukturlu torpaq şəklinə salmaq, orada əkdiyimiz bostan, kartof, tərəvəz və meyvə məhsullarını tamlı etməkdir. Yaxşı olardı ki, fermerlər, eləcə də fərdi təsərrüfat sahibləri heç bir xərc çəkmədən sadə üsulla kompost hazırlasınlar və tətbiq etsinlər. İndi olmasa da, gələcəkdə külli miqdarda üzvi tullantıların istifadəsi məcburiyyətində qalacağıq. Axı, ağız tamını nə üçün itirə-itirə gedək? Bu, olmasın deyə gərək bütün qida və yem bitkiləri yetişdirən torpaqlarımızı zəngin strukturlu meşə torpaqları səviyyəsinə çatdıraq.

Kompost hazırlamağın sadə üsulu mövcuddur. Fermerlər, eləcə də fərdi təsərrüfatçılar azı 5-10 kubmetr ölçüdə quyunu fermaya yaxın, yaxud münasib yerdə qazmaqla mal-qaranın bərk və duru ifrazatlarını, qoyun qığını, qaz, ördək, göyərçin, toyuq və s. quşların bütün qalıqlarını, payızda tökülən xəzəlləri (yandırılmadan) oraya doldururlar. Həmin quyuya ağac yonqarını, yaxud kəpəyini, üzüm cecəsini, pambıq qərzəyini, ən çox da gündəlik mətbəxdən atılan bütün ərzaq tullantılarını, imkan olarsa bazarların və fabriklərin üzvi qalıqlarını elə nəm halda doldurmaq lazımdır. Axırıncı dəfə quyu yaxşıca nəmləşdirilib üzəri sintetik poliamid (qalın) pərdə ilə kip örtülməlidir. Bunun üçün qalın pərdənin ətrafını yaş torpaqla basdırmaq yaxşı nəticə verər. Belə hazırlanmış kompost 6 aya tam yetişir, quyudan çıxarılaraq torpağa verilir. Bundan sonra torpaqda şumlama, yaxud bellәmə apırılır. Kompost hazırlanan zaman təbii çürümə nəticəsində yaranan azı 60 dərəcə istilikdə alaq otlarının toxumları, zərərverici və xəstəlik törədicilərinin əksəriyyəti (o cümlədən danadişi və s.) tam məhv olur. Bu zaman azot itkisinə də yol verilmir.

Kompost nədir? Əvvəla, kompost torpağı azot, fosfor, kalium və s. mikroelementlərlə təmin edir, əsasən də faydalı mikroorqanizmlərin fəaliyyətini yaxşılaşdırır, torpağın bioloji aktivliyini yüksəldir, humusun (çürüntünün) miqdarını artırır.

**(Ardı 6-cı səhifədə).**